# MAARİF MÜƏLLİMİN POETİK PASPORTU

Tarix elmləri doktoru, professor Şahin Fazil XX əsrin 2-ci yarısından XXI əsrin 20-ci illərinə kimi, yəni ömrünün sonuna kimi, öz yaradıcılığı ilə qəzəl janrını yüksək sənətkarlıqla və klassik üslubda davam və inkişaf etdirmişdir. Şahin Fazilin 2 hissədən ibarət olan 5-ci divanının 2-ci kitabında (2022-ci il) - 1208-ci səhifədə tarixçi həmkarı tarix üzrə fəlsəfə doktoru Maarif Xalıqova həsr etdiyi qəzəli diqqətimi çəkdi. Əlbəttə ki, Şahin Fazil oğlu Fərzəliyevin (Şahin Fazil) tarixçi kimi, şərqşünas kimi yaradıcılığında intellektual poeziya örnəklərinin diqqəti çəkməsi təbiidir. Belə ki, o, bir alim kimi həyata, dünyaya baxışlarını poeziyasının, eləcə də qəzəllərinin yaddaşına gətirir, mükəmməl sənət əsərləri vasitəsilə müraciət etdiyi mövzunu poetik baxımdan pasportlaşdırırdı. Onun tarixçi alim Maarif müəllimə həsr etdiyi qəzəli də Maarif Xalıqovun poetik pasportu kimi səciyyələndirə bilərik. İstərdim ki, bu məqamda qəzəlxan Şahin Fazilin vaxtilə Maarif müəllimə verdiyi həmin poetik pasportu birər-birər vərəqləyək, görək həmin pasportun səhifələrində Maarif Xalıqov necə təqdim olunub:

Yarımçıq arzu niyyətlər yarımçıq yox, tam olsun kaş,
Xudaya, hər çətin dərdə çox asan əncam olsun kaş.

Gözəl torpaqlarım qalmış yad əllərdə, yad ellərdə,
O kafərlər kənar olsun, müzəffər - islam olsun kaş.

Qarabağ mülkü uğrunda savaşlar qoy davam etsin,
İgid kəslər zəfər çalsın, xəbislər bədnam olsun kaş.

Didərginlər didərginlik bəlasından xilas olsun,
Vətən mülkündə hər insan ömürlük aram olsun kaş.

Maarif Xalıqov, ey Xaliqə sadiq olan bəndə,
Həyatın elminə layiq işıqlansın, şam olsun kaş.

Mənim tək söz deyən çoxdur, sənin tək alim az gördüm,
Bu sözlər xudpəsənd alimlərə bərk eyham olsun kaş.
Qələm səndə, qələm məndə, kəlam səndə, kəlam məndə,
Edək tərif qoca Şərqi, könüldə ilham olsun kaş.

Səhənd-Şahdağ, Bakı-Təbriz məhəbbətlə salam versin,
O sahildə, bu sahildə sərasər bayram olsun kaş

Sənə sağlam həyat arzu edir Şahin, yaşa sağlam,
Maarif varsa arif var, Maarif sağlam olsun kaş!!!

Qəzəl 20 noyabr 2019-cu ildə yazılıb. Təsadüfən xatırlatmıram bu tarixi. Yəni 2020-ci ilin Zəfər tarixindən əvvəl yazılıb. Onda hələ Qarabağımız yağı düşmənlərdən azad olunmamışdı. Tarixçilərin missiyası isə tarixi həqiqətləri yazmaq, öz əsərlərində obyektivliyi əks etdirməkdir. Şahin Fazil də, Maarif Xalıqov da ixtisasca tarixçidirlər. Bu qəzəlin də mövzusu və başlıca məzmunu tarixə müraciət üslubunda yazılıb. Bu məqamı tutmadan, dərk etmədən şairin ibarələrini, demək istədikləri fikirləri tam anlamaq olmaz. İndi gələk qəzəlin misralarının üstünə. Beyt - beyt onların ifadə etdiyi məzmunu - mənanı vərəqləyək:

İlk misralarda müəllif arzu - niyyətlərin(in) yarımçıq olmamasını arzulayır və Xudaya (Allaha) üz tutmaqla çətin dərdlərin - müşküllərin çözülməsini diləyir. Bu arzu - diləyin davamı kimi gələn 2-ci beytdə artıq şairin nəyə işarə etdiyinə aydınlıq gətirilir. Şair "gözəl torpaqlarım" dedikdə gözəl Qarabağın, Zəngəzurun düşmən əlində olmasını dilə gətirib, kafərlərin - ermənilərin doğma torpaqlarımızdan kənar olmasını - rədd olub getməsini, "islam aləminin qələbə çalmasını" arzulayır. Yuxarıda şeirin yazılma tarixinə əbəs yerə diqqət çəkməmişdim. Qəzəlin məzmunundan da görünür ki, bu arzular 2020-ci ilin 2-ci Qarabağ müharibəsindən əvvəl yazılıb. Ancaq şair sözü haxdan gələn ilahi nidadır ki, Allah-təala Şahin Fazilin bu arzusunu üstündən heç il keçməmiş çin elədi, diləyini yerinə yetirdi və torpaqlarımız Ali Baş Komandanımızın qətiyyətli sərkərdəliyi sayəsində işğalçılardan azad olundu:

"Qarabağ mülkü uğrunda qoy savaşlar davam etsin" arzusu da, xəbislərin - nankor düşmənlərimizin bədnam olması və igid kəslərin - igidlərimizin qələbəsi də təmin olundu. Beləcə, didərginlər bu bəladan xilas oldular və nəticədə şairin də yazdığı kimi, 30 illik, 30 ildən də çox çəkən yurd həsrəti sona yetməklə, "vətən mülkündə hər insanın ömürlük aram olması" duası Allah-təalanın dərgahında eşidildi.

İndi burada sual oluna bilər ki, bu cümlələrlə qəzəlin ithaf olunduğu tarixçi alim Maarif müəllimin hansı bağlantıları var. Bu sorğumuza birbaşa qəzəlxanın öz dilindən bədii bir açıqlama gətirilir.

Maarif Xalıqov, ey xaliqə sadiq olan bəndə,
Həyatın elminə layiq işıqlansın, şam olsun kaş.

Fikir verin, şair Maarif müəllimin soyadının Allahın uca adlarından olan "Xaliq" sözü ilə əlaqəsini poeziya dili ilə açıb ortaya qoyur.



"Xaliqə sadiq bəndə" şəklində bu mənaya bədii-poetik yozum verir. Deməli, şairin bayaqdan bəri qəzəlin əvvəlindən Tanrını çağırması əbəs deyilmiş, Maarif müəllimin soyadında ehtiva olunan Allahın Xaliq ismini də daşıması mənasını ürəyində tutub, şeiri Allaha yalvarışlar şəklində başlamışdır. Beytin 2-ci misrasında isə bu düşüncəsini birbaşa açıqlamışdır: "Həyatın elminə layiq işıqlansın". Əsas fikir çözümü də elə bu ifadələrdə əksini tapıb. Nə deməkdir bu? Məncə, bu fikrin izahı Şahin Fazilin publisistik dillə dediyi "Bir vaxtlar Azərbaycanın savaş və həzz qalası olan Bəzz qalasının tarixi bərk çəkdi özünə Maarifi" fikirlərindən boy göstərir. Çünki tarixçi alim olmaqla yanaşı Maarif Xaliqov həm də patriotdur, vətənini min bir məhəbbətlə sevir və doğma Azərbaycanın ərazi bütövlüyünün bərpası da onun qəlbində bəslədiyi ən uca və ülvi arzular idi. Hələ mən Maarif müəllimin həyat yoldaşının işğal altında qalmış Zəngilan rayonundan olması faktını da buna əlavə etsəm, belə bir məntiq də görünür ki, onun həyat yoldaşı elə Maarif müəllimin canının və ruhunun bir yarısıdır. Əgər canının-ruhunun yarısı olan bir şəxsin vətəni düşmən tapdağındadırsa, deməli, həmin adam vətənsiz natamam görünür, arzuları nə qədər gül açsa da, qəlbi-könlü nisgilli görünür.

Bu kontekstdən düşündükdə Maarif müəllim üçün Qarabağın yağı tapdağında olması onun özü üçün də, övladları üçün də ümumxalq dərdiilə yanaşı həm də talelərindən keçən fərdi, yəni şəxsi kədər idi. Bu mənada Maarif müəllim üçün qəzəlin ilk bəndindən vurğulanan və şeir boyu özünü göstərən "yarımçıq arzu niyyətlərin yarımçıq olmamasının" arzulanması fikrinin nə demək olmasının poetik çaları məlum olur. Lakin bununla da məsələ bitmir. Şair-qəzəlxan Şahin Fazil əslində problemə daha geniş yöndən yanaşaraq şeirinin əsas qayəsini bu arzu-məslək üstündə, bu cür ülvi dilək üstündə qurmuşdur. Əbəs deyil ki, "mənim tək söz deyən çoxdur, sənin tək alim az gördüm" deyir ki, növbəti misradakı fikirlə nə demək istədiyinə aydınlıq gətirir: "Bu sözlər xudpəsənd alimlərə bərk eyham olsun kaş". Yəni ki, Maarif müəllim xudpəsənd adam deyil, kiminsə pisliyini istəməz və üstəlik də vətənimizin yaman günündən ötrü qəlbən - ruhən narahat olan alimdir. Ona görə də yuxarıda toxunduğum şairin "həyatın elminə layiq işıqlansın" fikrinə indi burada tam açıqlama verəcəyəm. Bəzz qalasının sorağına düşən, cəlayivətən kimi gedib Bəzz qalasını ziyarət edən alim təbii ki, vətəninin bütövlüyünü can-dildən arzulayar. Ona görə "həyatın elminə layiq olsun" deyir ki, elmində-yaradıcılığında tarixçi alim olaraq vətənimizin tarixindən yazan Maarif müəllimin vətəninin bütövlüyünün bərpa edilməsi onun həyatının da yaradıcılığı kimi bütövtəndürüst olmasıdır. Məhz bu amilə nəzərən Qarabağımızın azad edilməsi istəyi ilə Maarif müəllimə ünvanlanan xoş arzu-istəklər poetik baxımdan eyni məcraya sığır.

Məhz bu kimi arzu-niyyətlərini dilə gətirdikdən sonra - Qarabağın bütövlük arzusu gerçəkləşəndən sonra şair yazır ki, "qələm səndə, qələm məndə, kəlam səndə, kəlam məndə" - yəni ikimiz də tarixçi alimik, qələmimiz də var, kəlamımız da - yəni deyiləcək, yazılacaq fikirlərimiz də. Ona görə də bu pak arzumuz çin olduqdan sonra "könüldə ilham olacaq" deyir və bu əsasda da "Qoca Şərqi də, doğma Azərbaycanı da tərif edək" arzusunu dilə gətirir. Elə bu fikirlərinin məbədi olaraq da qəzəldə göstərir ki, Səhənd-Şahdağ, Bakı-Təbriz bir-birlərinə məhəbbətlə salam verib - görüşsün. Əlbəttə ki, bütün bunlar hansı halda ola bilər, o halda ki, elə qəzəlin də dilindən vurğulandığı kimi, "O sahildə, bu sahildə sərasər bayram olsun kaş". Televiziya ekranlarından da 2020-ci ildə izlədiyimiz kimi, Qarabağımızın işğaldan azad olunması sevincinə o sahildə - Güneydə də şərik çıxan Azərbaycanlılarımız "sərasər bayram edib", qurbanlar kəsdilər.

Tarixçi Şahin Fazilin də şair kimi də, şərqşünas - tərcüməçi və tarixçi alim kimi də ilhamına qanad verən bu ülvi duyğular vətənpərvər alim kimi Maarif Xalıqovun da bir vətəndaş-alim olaraq daxilindən gələn vətən sevgisi ilə bir arada qovuşur və qəzəlin başdan-ayağa məzmunu da bu qayə üstündə qurulub. Məqtə beytdə də şəxsi arzularını dilə gətirən şair ona sağlam həyat arzulamaqla yanaşı, ümumi xoş diləklərini də yetirib deyir: Maarif varsa, arif var, Maarif sağlam olsun kaş!

Sonda üç nida işarəsilə fikrini bitirib şair. Son misrada da poetik gediş edir müəllif və bu dəfə Maarif müəllimin adında ifadə olunan mənanı poetik baxımdan mənalandırır: Maarif sözünün ümumi isim kimi daşıdığı leksik mənaya diqqəti yönəldən şair-qəzəlxan eyni zamanda şərqşünas tərcüməçi kimi də maarif sözü ilə arif sözünün eyni kökdən olduğuna işarə edir, "maarif varsa arif var" deyəərk bunların bir-birindən ayrılmaz söz kökləri olduğunu bildirir. Maarif arif olan mənasına gəlir və öz adının mənasını bir alim kimi, insan kimi öz naturasında ləyaqətlə yaşadan Maarif müəllimə və onun simasında elmə - maarifə olan xoş diləyini ifadə edir: "Maarif sağlam olsun kaş!!!" deyib yüksək həyəcan nidaları ilə fikrini tamamlayır. Elmin-maarifin, bir sözlə, sağlam düşüncənin olmasını arzulayan şair söz içində söz deməyi ustalıqla bacarır və sözün hər iki mənasında arzularını ismarlayır. Beləcə, qəzəlin içində də "Maarif Xalıqov" ifadəsini işlədən müəllif elmin-düşüncənin işığında ziyalı bir alim ömrü yaşayan tarixçi alimin mükəmməl və dolğun poetik portretini yaradır.

Bir daha sonda Şahin Fazilin arzularına qoşulub, "Maarif sağlam olsun kaş!" deyib Maarif müəllimə sağlam və uzun ömür arzulayırıq!

*Şakir ALBALIYEV,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*dosent*